**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

18 aprel 2026-cı il | №14 (9169) | www.muallim.edu.az | muallim@media.edu.az

# Antalyada Diplomatiya Forumunun açılış mərasimi keçirilib

## Prezident İlham Əliyev tədbirdə iştirak edib






Aprelin 17-də Türkiyənin Antalya şəhərində 5-ci Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Tədbirdə Türkiyənin xarici işlər naziri Hakan Fidan açılış nitqi ilə çıxış etdi.

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi. Prezident Rəcəb Tayyib Ərdoğan çıxışında Türkiyə ilə Ermənistan arasında davam edən normallaşma prosesinin Azərbaycanla əlaqəli şəkildə aparıldığını vurğuladı. Türk Dövlətləri Təşkilatından danışan Türkiyə Prezidenti qurumun fəaliyyətinin daha da inkişaf etdiyini bildirərək dedi: “Bu ilin son aylarında ölkəmizdə təşkil edəcəyimiz XIII Türk Dünyası Zirvəsində yeni dövrdə sədrliyi Azərbaycandan təhvil alacağıq. İnşallah, bu müddətdə təşkilatımızın beynəlxalq fəaliyyətini və nüfuzunu daha da artıracağıq. Azərbaycanla əlaqələndirilmiş şəkildə qonşumuz Ermənistanla normallaşma prosesində addım-addım irəliləyirik. Bu minvalla Asiya ilə Avropa arasındakı ticarətdə ən etibarlı marşrut olan və Xəzərdən keçən Şərq-Qərb - Orta Dəhliz təşəbbüsünə də güclü dəstəyimiz davam edir”.

***

Qeyd edək ki, geosiyasi gərginliklər, dəyişən güc balansları, ticarət maneələri və çoxtərəfliliyə artan təzyiq fonunda cari qlobal mənzərənin proqnozlaşdırılması getdikcə daha çətin xarakter alır. Beşinci Forumun mövzusu “Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək” riskləri və imkanları müəyyənləşdirməyi, strategiyalar hazırlamağı və əldə olunan razılaşmaları əməli addımlara çevirməyi tələb edir.

Builki forumda 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısı, 14 dövlət və hökumət başçısının müavini, 39-u xarici işlər naziri olmaqla 50-dən artıq nazir, həmçinin 75-i beynəlxalq təşkilatların nümayəndəsi olmaqla ümumilikdə 500-dən çox yüksəksəviyyəli şəxs iştirak edir.

Forum çərçivəsində liderlərin panelləri də daxil olmaqla, 40-dan çox tədbir və sessiyanın keçirilməsi nəzərdə tutulur.

## “Mən, Lalə, bir də Şerlok Holms”



Çoxseriyalı bədii televiziya filminin ikinci mövsümünün təqdimatı keçirilib

Bax səh.2

## Emin Əmrullayev Xaçmazda və Qusarda tədris prosesi ilə tanış olub



Bax səh.3

## Jurnalistlər üçün elm və təhsil üzrə media məktəbinə start verilir




Bax səh.5

# Məktəbli qızlarımız Avropa Qızlar Riyaziyyat Olimpiadasında 3 medal qazanıblar



**Qızlarımız XV Avropa Qızlar Riyaziyyat Olimpiadasından (EGMO 2026) 3 bürünc medalla qayıdıblar.**

Fransanın Bordo şəhərində keçirilən olimpiadada Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 9-cu və 10-cu sinif şagirdləri Gülay Əlizadə və Zeynəb Umudlu, həmçinin Bakı şəhəri 236 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Ləman Nəbiyeva fərqləniblər.

# Gələcəyə sərmayənin ünvanı

## Qarabağ Universitetinin tələbələri seçimlərindən razıdırlar

**Xankəndidə Qarabağ Universitetinin fəaliyyətə başlaması Azərbaycanın təhsil tarixində yeni və strateji bir mərhələnin təməlini qoyub. Otuzillik işğaldan azad edilmiş ərazilərdə elmin və maarifçiliyin yenidən dirçəldilməsi məqsədilə yaradılan bu ali təhsil ocağı regionun intellektual potensialının bərpası üçün mühüm mərkəz rolunu oynayır. Bu addım təkcə Qarabağın yenidən qurulması deyil, həm də bölgədə dayanıqlı məskunlaşmanın təmin edilməsi və gənc nəslin doğma torpaqlarda müasir biliklərə yiyələnməsi baxımından tarixi əhəmiyyət kəsb edir.**




Bax səh.6

### “Azərbaycanın təhsil sistemi gözləntilərimi doğruldub”

Bax səh.2

### “Sahəvi biliklərin davamlı inkişafına ehtiyac yaranır”

Bax səh.5

### “İrəvanda Azərbaycan təhsil tarixi”

Bax səh.7

### Azərbaycan Tələbə Liqasının 2025/2026 mövsümündə II dövrəyə start verilib

Bax səh.8

# Somalidən olan tələbələr Azərbaycanda Heydər Əliyev adına təqaüd əsasında təhsil alırlar



## Prezident İlham Əliyev Somalinin Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Somali Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdinur Dahir Fidounu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Qəbula görə minnətdarlığını bildirən Abdinur Dahir Fidou Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Hasan Şeyx Mahmuda çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı ötən il ölkələrimiz arasında dostluq münasibətlərində yeni səhifə açmış Somali Prezidentinin Azərbaycana rəsmi səfərini xatırladaraq, həmin səfər çərçivəsində ikitərəfli əlaqələrin inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığını, əməkdaşlığın genişləndirilməsi məqsədilə bir sıra sənədlərin imzalandığını vurğuladı.

Azərbaycan Prezidenti ölkələrimiz arasında yaxşı siyasi münasibətlərin olduğunu deyərək, iqtisadi əməkdaşlığı genişləndirməyin önəminə toxundu.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Somalinin Azərbaycanda səfiri təyin olunmasından məmnunluğunu bildirən Abdinur Dahir Fidou ölkələrimiz arasında münasibətlərin inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi.

Söhbət zamanı ikitərəfli və çoxtərəfli formatlarda, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi, son dövrlərdə təmasların intensivləşdiyi və qarşılıqlı səfərlərin sayının artdığı vurğulandı.

Görüşdə iqtisadiyyat, ticarət və digər sahələrdə əlaqələri genişləndirmək üçün yaxşı potensialın olduğu bildirildi.

Somali Prezidentinin ölkəmizə rəsmi səfəri çərçivəsində imzalanmış sənədə əsasən, bu ölkədə “ASAN xidmət” təcrübəsinin tətbiqi ilə bağlı işlərin davam etdirildiyi vurğulandı.

Elm və təhsil sahələrində əməkdaşlığa toxunuldu, hələ sovet dövründə Somalidən çoxsaylı tələbənin ölkəmizdə təhsil aldığı və bu ənənənin hazırda da davam etdiyi qeyd olundu. Bu xüsusda Somalidən olan tələbələrin Azərbaycanda Heydər Əliyev adına təqaüd əsasında təhsil aldıqları bildirildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# BMU-nun Somalidən olan tələbəsi: "Azərbaycanın təhsil sistemi gözləntilərimi doğruldub"

**Bakı Mühəndislik Universitetinin (BMU) Somali Federativ Respublikasından olan tələbəsi Azərbaycan Dövlət Televiziyasının (AzTV) hazırladığı süjetdə ölkəmiz və təhsil sistemi ilə bağlı təəssüratlarını bölüşüb.**



BMU-dan “Azərbaycan müəllimi”nə verilən məlumata görə, AzTV-nin “Xarici ölkələrdən gələn gənclər niyə Azərbaycanı seçir” mövzusundakı süjetdə bildirilib ki, Hökumətlərarası Təqaüd Proqramı çərçivəsində müxtəlif ölkələrdən olan tələbələrin Azərbaycanın ali təhsil müəssisələrində təhsil almaq imkanları genişlənir. Qeyd olunub ki, ölkəmizdə təhsil alan xarici tələbələrin, o cümlədən Somalidən gələn gənclərin sayı artmaqdadır.

Süjetdə çıxış edən BMU-nun “İdarəetmədə informasiya sistemləri” ixtisasının tələbəsi, Somali vətəndaşı Şafie Mohamud Naqeyenin sözlərinə görə, ali təhsil seçimi zamanı müxtəlif ölkələri araşdırıb və Azərbaycanı təqdim etdiyi imkanlara görə daha uyğun hesab edib. O, informasiya texnologiyaları sahəsini seçməsini isə bu istiqamətin Azərbaycanda sürətli inkişafı ilə əlaqələndirib.

Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı proqramı çərçivəsində təhsil alan Şafie Mohamud Naqeye deyib ki, BMU-da təhsil sistemi onun gözləntilərini doğruldub: “Müəllimlər yüksək səviyyədədir, kollektiv çox mehribandır. Ümumilikdə azərbaycanlılar yardımsevər və qonaqpərvər insanlardır”.

O, ilk vaxtlar Azərbaycan dili ilə bağlı müəyyən çətinliklər yaşadığını desə də, hazırda bu dili öyrəndiyini və sərbəst ünsiyyət qurduğunu vurğulayıb: “Bu, mənim üçün ən böyük nailiyyətlərdən biridir. Yaşasın Azərbaycan!"

# “Mən, Lalə, bir də Şerlok Holms”

## Çoxseriyalı bədii televiziya filminin ikinci mövsümünün təqdimatı keçirilib

**Aprelin 15-də Nizami Kino Mərkəzində Elm və Təhsil Nazirliyinin dəstəyi, İctimai Televiziya və Radio Yayımları Şirkəti və KAC Group Medianın birgə təşəbbüsü ilə hazırlanan “Mən, Lalə, bir də Şerlok Holms” çoxseriyalı bədii televiziya filminin ikinci mövsümünün təqdimatı keçirilib.**






Təqdimat mərasimində Leyla Əliyeva və Alena Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, mədəniyyət naziri Adil Kərimli, dövlət rəsmiləri, tanınmış mədəniyyət və incəsənət nümayəndələri, eləcə də digər qonaqlar iştirak ediblər.

Salamlama nitqi ilə çıxış edən İctimai Televiziya və Radio Yayımları şirkətinin baş direktoru Balakişi Qasımov filmin ərsəyə gəlməsinə göstərilən dəstəyə görə Elm və Təhsil Nazirliyinə təşəkkür edib, ekran əsərinin hazırlanmasında əməyi olan hər kəsə minnətdarlığını bildirib və onlara uğurlar arzulayıb.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayev son illər televiziya məkanında keyfiyyətli məzmunun təqdim olunmasının, xüsusilə təhsilyönümlü layihələrə göstərilən diqqətin təqdirəlayiq olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu kimi layihələr uşaqların maariflənməsinə və dünyagörüşünün formalaşmasına mühüm töhfə verir. Nazir çıxışının sonunda layihənin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Layihənin ideya müəllifi Tural Sevdimalı çıxışında bildirib ki, əsas məqsəd film vasitəsilə uşaqlara düzgün dəyərləri aşılamaqdır. Onun sözlərinə görə, yaxın zamanda filmin tammetrajlı versiyasının çəkilişi planlaşdırılır. Ekran əsərinin gələcəkdə kinoteatrlarda nümayişi nəzərdə tutulur.

Qeyd edək ki, layihənin ideya müəllifi Tural Sevdimalı, ssenari müəllifləri isə Tural Sevdimalı və Vüqar Hüseynovdur. Ailəvi, detektiv və komediya janrlarını özündə birləşdirən serial hər biri 50 dəqiqə olmaqla 12 seriyadan ibarətdir.

Serialın birinci mövsümündə hadisələr Muradın yay tətilini keçirdiyi kənddə cərəyan edir. Onun kitablarla tanışlığı, xüsusilə Artur Konan Doylun əsərləri vasitəsilə Şerlok Holms obrazının təxəyyülündə canlanması süjetin əsas xəttini təşkil edir. Layihənin başlıca məqsədi mütaliənin insan həyatındakı rolunu ön plana çıxarmaqdır. Eyni zamanda, Muradın zəngin təxəyyülü vasitəsilə müxtəlif tarixi və mədəni şəxsiyyətlər canlandırılır ki, bu da seriala maarifləndirici məzmun qazandırır. Layihədə uşaqlara dürüstlük, məsuliyyət, böyüklərə hörmət, ətraf mühitə qayğı və ictimai davranış qaydaları kimi dəyərlər aşılanır.







Yeni mövsümdə hadisələr 11 yaşlı Muradın ətrafında inkişaf edir. O, “Əlaçı” bilik yarışmasının qalibi olmağı arzulasa da, qaydalara əsasən yarışmada iştirak hüququnu itirir. Buna baxmayaraq, Murad Lalənin öz kəndlərini təqdim etməsi üçün ona dəstək olur və hazırlıq prosesində fəal iştirak edir. Süjet xəttində uşaqlar arasında rəqabət, dostluq münasibətləri və seçim qarşısında qalmaq kimi mövzular ön plana çıxır. Muradın xəyali dostu olan məşhur detektiv Şerlok Holms bu mövsümdə də ona dəstəyini davam etdirir.

“Mən, Lalə, bir də Şerlok Holms 2” serialı aprelin 19 - dan etibarən İctimai TV-nin efirində tamaşaçılara təqdim olunacaq.

**AZƏRTAC**

# Elm və təhsil naziri Xaçmaz, Quba və Qusar rayonlarına səfər edib

## Emin Əmrullayev Xaçmazda və Qusarda tədris prosesi ilə tanış olub











**Aprelin 16-da elm və təhsil naziri Emin Əmrullayev Xaçmaz şəhəri C.Cabbarlı adına 6 nömrəli tam orta ümumtəhsil məktəbində olub.**

Əvvəlcə Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev ilə birlikdə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Daha sonra sözügedən təhsil müəssisəsində şəhidlərin xatirəsinə ucaldılmış abidə ziyarət olunub, onların əziz xatirəsi ehtiramla yad edilib.

Nazir məktəbdə yaradılmış şəraitlə tanış olub, sinif otaqlarında keçirilən dərs prosesini izləyib, müəllim və şagirdlərlə görüşüb. Görüş zamanı tədrisin keyfiyyəti, təhsil mühitinin təşkili və şagirdlərin bilik və bacarıqlarının inkişafı məsələləri müzakirə olunub.

Sonra nazir peşə təmayüllü siniflər, STEAM yanaşmasının tətbiq olunduğu tədris mühiti, müasir tədris metodlarının tətbiqi ilə yaxından tanış olub, eləcə də "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində təşkil edilən dərsləri izləyib. Məktəbdə həyata keçirilən tədris prosesi və mövcud infrastruktur barədə nazirə ətraflı məlumat təqdim olunub. Nazir tərəfindən təhsil prosesinin daha da təkmilləşdirilməsi, innovativ yanaşmaların genişləndirilməsi və tədrisin keyfiyyətinin artırılması istiqamətində müvafiq tapşırıq və tövsiyələr verilib.

***

**Aprelin 17-də elm və təhsil naziri Emin Əmrullayev Qusar rayonuna səfəri çərçivəsində şəhər 4 nömrəli tam orta ümumtəhsil məktəbində olub.**

Nazir məktəbdə yaradılmış şəraitlə tanış olub, tədris prosesini izləyib, dərs mühiti, müəllim və şagirdlərin fəaliyyəti ilə maraqlanıb, şagirdlərlə maraq dairələri və gələcək planları barədə söhbət aparıb. Eyni zamanda tədrisin keyfiyyətinin artırılması istiqamətində məktəbdə görülən işlər barədə nazirə məlumat verilib.

Məktəbdə şagirdlərin əl işlərindən təşkil olunmuş sərgiyə baxış keçirilib, onların yaradıcılıq qabiliyyətləri və əldə etdikləri nailiyyətlər yüksək qiymətləndirilib.

Nazir həmçinin müəllim kollektivi ilə görüşərək tədrisin keyfiyyətinin artırılması, müasir tədris metodlarının tətbiqi və şagird nailiyyətlərinin yüksəldilməsi istiqamətində fikir mübadiləsi aparıb, müvafiq tövsiyə və tapşırıqlarını çatdırıb.



## Nazir Quba-Xaçmaz regionu üzrə təhsil işçiləri ilə görüşüb

**Aprelin 16-da elm və təhsil naziri Emin Əmrullayev Xaçmaz rayonuna səfəri çərçivəsində Quba-Xaçmaz regionu üzrə bir qrup təhsil işçisi ilə görüşlər keçirib.**

Görüşlərdə gənc və təhsil nailiyyətləri yüksək olan müəllimlər, həmçinin tərbiyəçi müəllimlər, metodistlər, yüksək monitorinq nəticələri ilə seçilən ümumi təhsil müəssisələrinin direktor və direktor müavinləri iştirak ediblər.

Görüşlər zamanı ölkədə həyata keçirilən təhsil islahatları, müəllim peşəsinin nüfuzunun artırılması, qabaqcıl təcrübələrin paylaşılması, tədrisin keyfiyyətinin yüksəldilməsi və müasir yanaşmaların tətbiqi istiqamətində görülən işlər barədə fikir mübadiləsi aparılıb. Nazir çıxışında müəllimlərin peşəkar inkişafının dəstəklənməsinin, onların fəaliyyətinin qiymətləndirilməsinin və motivasiyasının artırılmasının prioritet məsələlərdən biri olduğunu qeyd edib.

Təhsil işçiləri ilə dialoq şəraitində keçən görüşlərdə iştirakçıların təklif və fikirləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb. Görüşlər çərçivəsində nazir tərəfindən pedaqoji heyətin bilik və bacarıqlarının inkişaf etdirilməsi, təhsil mühitinin daha da təkmilləşdirilməsi istiqamətində müvafiq tövsiyə və tapşırıqlar verilib.



### Müəllimlərin peşəkar inkişafının dəstəklənməsi, onların fəaliyyətinin qiymətləndirilməsi və motivasiyasının artırılması prioritet məsələlərdəndir







# Həssas yanaşma, vətəndaş məmnunluğu

## Elm və təhsil naziri Qusarda vətəndaşları qəbul edib



**Aprelin 17-də elm və təhsil naziri Emin Əmrullayev Qusar şəhərində vətəndaş qəbulu keçirib.**

Qəbulda Qusar, Quba və Xaçmaz sakinləri iştirak ediblər.



Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Elm və Təhsil Nazirliyi ilə “Power China” şirkəti arasında strateji əməkdaşlıq müzakirə olunub




**Elm və təhsil naziri Emin Əmrullayev "Power China" şirkətinin nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə şirkətin Avrasiya üzrə vitse-prezidenti Tan Syaofen, eləcə də şirkətin Azərbaycan ofisinin rəhbər şəxsləri iştirak ediblər.

Görüş çərçivəsində “Power China” tərəfindən potensial əməkdaşlıq istiqamətləri üzrə təqdimat keçirilib. Daha sonra tərəflər arasında geniş fikir mübadiləsi aparılıb və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

# Nazir müavini Həsən Həsənli Azərbaycanla Latviya arasında Hökumətlərarası Komissiyanın 9-cu iclasında çıxış edib



**Aprelin 15-də Şuşa şəhərində keçirilmiş Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 9-cu iclasında elm və təhsil nazirinin müavini Həsən Həsənli iştirak edib.**

İclasda çıxış edən nazir müavini iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti barədə iştirakçıları məlumatlandırıb. Nazir müavini çıxışında hər iki ölkənin təhsilalanlarının qarşılıqlı mübadiləsinin genişləndirilməsi, birgə təhsil layihələrinin dəstəklənməsi, eləcə də ali təhsil müəssisələri arasında akademik əlaqələrin inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə də məlumat verib.

Komissiyanın iclasında həmçinin iki ölkə arasında investisiya, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, nəqliyyat, şəhərsalma və tikinti, ətraf mühitin mühafizəsi, turizm, mədəniyyət və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və potensial imkanları müzakirə olunub.

Sonda iclasın yekunlarına dair Protokol imzalanıb.

# Elm və Təhsil Nazirliyi ilə peşə assosiasiyaları arasında strateji əməkdaşlıq müzakirə olunub





**Aprelin 17-də elm və təhsil nazirinin müavini Kənan Kərimzadə “Azərbaycan Tekstil Assosiasiyası” və “Gözəlliyə Xidmət Sahəsində Sahibkarlara Dəstək” İctimai Birliyinin nümayəndə heyətləri ilə görüşüb.**

Görüşdə “Azərbaycan Tekstil Assosiasiyası”nın sədri Fəridə Axundova, “Gözəlliyə Xidmət Sahəsində Sahibkarlara Dəstək” İctimai Birliyinin sədri Elnarə Nəhmədova, “AzEstetik Group MMC”nin direktoru Rəşad Qasımov iştirak ediblər.

Görüş çərçivəsində tekstil və gözəllik xidmətləri sahəsində peşə təhsili pilləsi üzrə tərəflər arasında geniş fikir mübadiləsi aparılıb və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

# Nazir müavini Firudin Qurbanov Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə Dövlət Komissiyasının 24-cü iclasında iştirak edib

## Ümumi təhsil sahəsində əlaqələrin cari vəziyyəti və əməkdaşlıq perspektivləri müzakirə olunub





**Aprelin 16-da elm və təhsil nazirinin müavini Firudin Qurbanov Zəngilan şəhərində keçirilmiş Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 24-cü iclasında iştirak edib.**

İclasda iki ölkə arasında ticarət-iqtisadi, nəqliyyat, sənaye, təhsil və digər sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və potensial əməkdaşlıq imkanları müzakirə olunub.

Yekunda komissiyanın həmsədrləri tərəfindən iclasın nəticələrinə dair protokol imzalanıb.

Həmçinin Hökumətlərarası Dövlət Komissiyasının iclası çərçivəsində elm və təhsil nazirinin müavini Firudin Qurbanov ilə Rusiya Federasiyasının maarif nazirinin müavini Andrey Korneyev arasında görüş keçirilib. Görüş zamanı ümumi təhsil sahəsində əlaqələrin cari vəziyyəti və əməkdaşlıq perspektivləri müzakirə olunub.

# Nazir müavini Sankt-Peterburq Dövlət Universitetinin prorektoru ilə görüşüb

Aprelin 17-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 24-cü iclası çərçivəsində Azərbaycanda səfərdə olan Sankt-Peterburq Dövlət Universitetinin prorektoru Sergey Andryuşin və Rusiya nümayəndə heyətinin üzvləri ilə görüşüb.

Görüş zamanı Hökumətlərarası Dövlət Komissiyanın iclası çərçivəsində razılaşdırılmış fəaliyyət istiqamətləri üzrə müzakirələr aparılıb.



# Nazir müavini İdris İsayev Qubada ümumi və ali təhsil müəssisələrinin pedaqoji heyəti ilə görüşüb





**Aprelin 14-də elm və təhsil nazirinin müavini İdris İsayev Quba rayonuna səfər edib.**

Səfər çərçivəsində əvvəlcə Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov ilə birlikdə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Daha sonra Quba-Xaçmaz Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin gənc direktor və müəllimləri ilə görüş keçirilib. Görüşdə çıxış edən İdris İsayev təhsil sahəsində baş verən dəyişikliklərə uyğunlaşmağın vacibliyini vurğulayıb. Bildirib ki, müasir dövrdə şagirdlərin yalnız biliklərinin deyil, həm də bacarıqlarının inkişafı təhsil strategiyalarının əsas prioritetlərindəndir.

Nazir müavini qeyd edib ki, təhsil müəssisələrinin rəhbərləri kollektivdə komanda ruhunu formalaşdırmalı, müəllim əməyinə dəyər verilməsinə və valideyn məmnunluğuna xüsusi diqqət yetirməlidirlər. O həmçinin müəllimlərin müasir tədris metodlarını mənimsəməsinin, rəqəmsal bacarıqlara və süni intellekt sahəsində biliklərə yiyələnməsinin vacibliyini diqqətə çatdırıb.

Görüşdə Quba-Xaçmaz Regional Təhsil İdarəsinin müdiri Coşqun Əliyev çıxış edərək region üzrə təhsil göstəricilərini təqdim edib, buraxılış imtahanları və 4-6-cı siniflər üzrə monitorinq nəticələri barədə məlumat verib.

Görüş çərçivəsində təhsil sahəsində aparılan yeniliklər ətrafında fikir mübadiləsi aparılıb, səsləndirilən təkliflərin nəzərə alınacağı bildirilib.

Səfər çərçivəsində nazir müavini Quba rayonu Rəhman Məmmədov adına Alekseyevka kənd tam orta məktəbində mövcud şəraitlə tanış olub. Məktəbdə tətbiq olunan STEAM, innovativ məktəb, peşə təmayüllü və icma əsaslı məktəbəqədər təhsil layihələri ilə tanışlıq zamanı ətraflı məlumat təqdim edilib.

İdris İsayev məktəbdə SAF 2025 — “Sabahın alimləri” müsabiqəsinin qalibləri ilə görüşüb, şagirdlərin əl işlərindən ibarət sərgiyə baxış keçirib və peşə təmayüllü sinifdə təhsil alan şagirdlərlə söhbət aparıb. Məktəb rəhbərliyinə müvafiq tövsiyə və tapşırıqlar verilib.

Daha sonra nazir müavini Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialını ziyarət edib. Səfərin məqsədi regionlarda ali təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi, tədrisin keyfiyyətinin artırılması və pedaqoji kadr hazırlığının mövcud vəziyyətinin müzakirəsi olub.

Filialın maddi-texniki bazası ilə tanışlıq zamanı direktor Yusif Alıyev tərəfindən Azərbaycan-Özbəkistan Türk dünyası Tanıtım və Kültür Mərkəzi, tələbələr üçün yaradılmış şərait, kitabxana fondu və elektron resurslara çıxış imkanları barədə məlumat verilib.

Nazir müavini müəllim və tələbələrlə görüşərək onların təkliflərini dinləyib, tədris prosesinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələrini verib.

Sonra universitetin pedaqoji heyəti ilə geniş tərkibdə görüş keçirilib. Görüşdə Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov, filial rəhbərliyi və professor-müəllim heyəti iştirak edib.

Çıxış edən filial direktoru professor Yusif Alıyev filialın fəaliyyəti və inkişaf mərhələləri barədə məlumat verib, tədris və elmi fəaliyyət istiqamətində görülən işləri diqqətə çatdırıb.

İdris İsayev çıxışında regionlarda ali təhsilin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb. Qeyd edib ki, pedaqoji kadrların keyfiyyətli hazırlanması ölkənin gələcək inkişafı üçün mühüm əhəmiyyət daşıyır. O həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsilin strateji prioritetə çevrildiyini və bu istiqamətdə həyata keçirilən islahatların insan kapitalının inkişafına xidmət etdiyini bildirib.

İlqar Mahmudov isə çıxışında ali təhsil müəssisələrinin regionların sosial-iqtisadi inkişafında mühüm rol oynadığını qeyd edib, yerli qurumlarla əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Görüş qarşılıqlı fikir mübadiləsi şəraitində davam edib, iştirakçıların sualları cavablandırılıb.

Səfər çərçivəsində vətəndaş qəbulu keçirən nazir müavini müraciətləri dinləyib və qaldırılan məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verib.

# ELM VƏ TƏHSİL SAHƏSİ ÜZRƏ MEDİA SAVADLILIĞI

## Jurnalistlər üçün elm və təhsil üzrə media məktəbinə start verilir




**Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "Elm və təhsil sahəsində ictimai təşəbbüslərin dəstəklənməsi" qrant müsabiqəsi çərçivəsində "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyi tərəfindən "Elm və təhsil sahəsi üzrə media savadlılığının artırılmasına dəstək" layihəsinin icrasına başlanılır.**

Layihənin əsas məqsədi elm və təhsil mövzuları üzrə ixtisaslaşmış, sahəvi biliklərə malik media nümayəndələrinin bu istiqamətdə peşəkar bacarıqlarının daha da təkmilləşdirilməsinə töhfə verməkdir.

Layihə çərçivəsində ölkə mediasında fəaliyyət göstərən jurnalistlərin iştirakı ilə ümumilikdə 10 interaktiv təlim sessiyasının keçirilməsi nəzərdə tutulur. Təlimlər qurum nümayəndələri və sahə üzrə mütəxəssislərin iştirakı ilə təşkil olunacaq.

Təlim sessiyaları zamanı aşağıdakı aktual mövzular üzrə təqdimat və müzakirələr aparılacaq:

- Təhsilin iqtisadiyyatı
- Məktəbəqədər təhsil
- Ümumi təhsil sisteminin əsasları
- Tədrisin məzmunu və dərslik siyasəti
- Yerli və beynəlxalq təhsil qiymətləndirmələri
- Ali təhsil və beynəlxalq reytinqlər
- Təhsildə rəqəmsallaşma
- Elmi islahatlar
- Təhsildə keyfiyyət təminatı
- Elmi-pedaqoji jurnalistika

Təlimlərdə hazırda ölkə mediasında fəaliyyət göstərən jurnalistlər iştirak edə bilərlər. Maraqlanan şəxslər qeyd olunan mövzularla tanış olduqdan sonra xüsusi müraciət forması vasitəsilə qeydiyyatdan keçməlidirlər. Qeydiyyatın ilkin mərhələsi 30 apreldə yekunlaşacaq.

Qeydiyyatdan keçmiş namizədlər arasından seçiləcək iştirakçılara təlimlərin vaxtı və məkanı barədə əvvəlcədən fərdi şəkildə məlumat veriləcək. Təlimlər may ayından başlayaraq ilboyu davam edəcək.

**Müraciət üçün keçid:**
**https://forms.gle/ytEHbohpYncsVcBS7**
**Sual və təkliflər üçün elektron poçt:**
**mediaschool@ajn.az**

**Ayaz Mirzəyev:**

## "Sahəvi biliklərin davamlı inkişafına ehtiyac yaranır"

### "Əsas məqsəd elm və təhsil mövzularının mediada daha peşəkar dəqiq və sistemli işıqlandırılmasına töhfə verməkdir"

**Təhsil cəmiyyətin gələcəyini formalaşdıran ən həssas və strateji sahələrdən biridir. Bu sahədə səsləndirilən hər fikir, yayımlanan xəbər və yazılan hər bir məqalə ictimai rəyə birbaşa təsir göstərir. Lakin informasiya axınının sürətləndiyi müasir dövrdə bəzən populizmə meyil, sensasiya xatirinə təqdimatlar və ya mövzuların kifayət qədər dərindən araşdırılmaması təhsilin mahiyyətinə kölgə sala bilir. Halbuki təhsil elə bir sahədir ki, burada dəqiqlik, məsuliyyət və peşəkar yanaşma hər şeydən önəmlidir.**

Bu baxımdan elm və təhsil sahələrini işıqlandıran jurnalistlərin ümumi media bacarıqlarına sahib olmaları ilə yanaşı, sahəvi biliklərə yiyələnmələri də vacibdir. Məhz bu ehtiyacdan irəli gələrək Elm və Təhsil Nazirliyinin həyata keçirdiyi "Elm və təhsil sahəsində ictimai təşəbbüslərin dəstəklənməsi" qrant müsabiqəsi çərçivəsində "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyi tərəfindən "Elm və təhsil sahəsi üzrə media savadlılığının artırılmasına dəstək" layihəsinin icrasına başlanılıb. Layihə çərçivəsində təşkil olunacaq təlimlər jurnalistlərə həm nəzəri biliklər, həm də praktik yanaşmalar təqdim etməklə təhsil mövzularının daha düzgün və keyfiyyətli işıqlandırılmasına şərait yaratmağı qarşıya məqsəd qoyur. Layihə çərçivəsində media mütəxəssisləri üçün elm və təhsil sahəsinin aktual mövzularını əhatə edən 10 interaktiv təlim sessiyası təşkil olunacaq. Təlimlər may ayından başlayaraq ilboyu qurum nümayəndələri və sahə üzrə mütəxəssislərin iştirakı ilə keçiriləcək.

Mövzunun aktuallığını və layihənin əhəmiyyətini nəzərə alaraq bu təşəbbüsün detalları, qarşıya qoyulan məqsədlər və gözlənilən nəticələrlə bağlı suallarımızı "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyinin sədri Ayaz Mirzəyev cavablandırıb.

### "Müşahidələrimiz və araşdırmalarımız göstərir ki..."

*— Ayaz müəllim, "Elm və təhsil sahəsi üzrə media savadlılığının artırılmasına dəstək" layihəsinin yaranma zərurəti nədən irəli gəldi?*



— Müasir informasiya mühitində elm və təhsil sahəsi cəmiyyətin gələcəyini müəyyən edən strateji istiqamətlərdən biri hesab olunur. Bu sahələr üzrə ictimaiyyətə təqdim edilən məlumatların düzgün, peşəkar və obyektiv şəkildə çatdırılması isə xüsusi əhəmiyyət daşıyır. Bizim müşahidələrimiz və araşdırmalarımız göstərir ki, elm və təhsil mövzuları bəzən kifayət qədər spesifik terminologiya, statistik göstəricilər və institusional yanaşmalar tələb etdiyindən bu istiqamətdə çalışan media nümayəndələrinin sahəvi biliklərinin davamlı inkişafına ehtiyac yaranır. Layihənin əsas səbəbi də məhz jurnalist həmkarlarımızın bu sahələr üzrə analitik, məzmunlu və məsuliyyətli informasiya istehsal etmə bacarıqlarının gücləndirilməsinə dəstək verməkdir.

*— Layihənin əsas məqsədi konkret olaraq hansı problemlərin həllinə yönəlib?*

— Layihənin əsas məqsədi elm və təhsil mövzularının mediada daha peşəkar, dəqiq və sistemli şəkildə işıqlandırılmasına töhfə verməkdir. Bu təşəbbüs xüsusilə bir neçə istiqamətlərdə mövcud ehtiyaclara cavab verməyə yönəlib. Təlimlər müddətində sahə üzrə terminologiya və anlayışların düzgün interpretasiya edilməsinin təmin olunması, kompleks və statistik məlumatların düzgün təhlil olunması bacarıqlarının artırılması, elm və təhsil xəbərlərinin səthi və ya yalnız informativ deyil, analitik təqdimatının təşviqi və ictimai həssaslıq doğuran mövzularda balanslı, məsuliyyətli media yanaşmasının formalaşdırılması ilə bağlı müzakirələr aparılacaq və təkliflər formalaşdırılacaq.

### Təlim elm və təhsilin ən aktual və ictimai maraq doğuran istiqamətlərini əhatə edir

*— Təlimin əsas mövzuları nələr olacaq və onların seçimi hansı ehtiyaclara əsaslanır?*

— Təlim proqramı birmənalı olaraq elm və təhsil sahəsinin ən aktual və ictimai maraq doğuran istiqamətlərini əhatə edir. Buraya təhsilin iqtisadiyyatı, məktəbəqədər və ümumi təhsil, dərslik siyasəti, təhsil qiymətləndirmələri, ali təhsil, beynəlxalq reytinqlər, rəqəmsallaşma, elmi islahatlar və digər mühüm mövzular daxildir. Onu da deyək ki, bu mövzular təsadüfi seçilməyib. Onların müəyyənləşdirilməsi zamanı biz bir çox müşahidələr aparıb, müəyyən kriteriyalar formalaşdırmışıq. Burada media gündəmində ən çox yer alan təhsil və elm mövzuları, strateji dövlət siyasətinin prioritet, eləcə də jurnalistlər tərəfindən ən çox sual doğuran istiqamətlər,ictimai müzakirələrdə tez-tez yanlış interpretasiya edilən məsələlər nəzərə alınıb.



Gördüyünüz kimi, proqram həm nəzəri, həm də praktik baxımdan jurnalistlərin gündəlik fəaliyyətində qarşılaşdığı real ehtiyaclara uyğun formalaşdırılıb.

*— İştirakçılar nə kimi konkret bilik və bacarıqlara nail olacaqlar?*

— Təlimlər iştirakçılara yalnız nəzəri məlumat təqdim etməklə kifayətlənməyəcək, eyni zamanda onların peşəkar fəaliyyətində praktik tətbiq edə biləcəkləri bacarıqları inkişaf etdirəcək. Xüsusilə aşağıdakı nəticələrin formalaşdırılmasını hədəfləyirik:

- **təhsil və elm siyasətini sistemli oxuma və anlama bacarığı;**
- **statistik və hesabat xarakterli məlumatları düzgün interpretasiya etmə;**
- **mövzulara emosional deyil, analitik yanaşma formalaşdırma;**
- **ekspert və rəsmi mənbələrlə işləmə prinsipləri;**
- **həssas və ictimai rezonans doğuran məsələlərdə etik media davranışı;**
- **sahəvi terminologiyadan düzgün istifadə.**

Belə yanaşma mediadakı həmkarlarımızın elm və təhsillə bağlı mövzulara daha hərtərəfli və diqqətli münasibət sərgiləməsinə imkan yaradacaq.

*— Təlimlər jurnalistlərin yazı üslubuna və yanaşmasına necə təsir edəcək?*

— Bu təlimlərin əsas məqsədlərindən biri jurnalistlərin elm və təhsil mövzularına yanaşmasında keyfiyyət dəyişikliyi formalaşdırmaqdır. Praktiki baxımdan iştirakçılarımız xəbəri yalnız hadisə kimi deyil, proses kimi analiz, fakt və rəqəmləri daha düzgün kontekstdə təqdim etməyi, mövzuya yalnız informativ deyil, izahlı və analitik yanaşma tətbiq etməyi öyrənə biləcəklər. Bununla yanaşı, başlıq və təqdimatda sensasion deyil, balanslı üslub seçməyi, ekspert mövqelərini və müxtəlif baxış bucaqlarını materiala inteqrasiya etməyi öyrənəcəklər. Əlbəttə, əsas istəyimiz nəticədə təhsil və elm mövzularında daha dərin, əsaslandırılmış və peşəkar media materiallarının hazırlanmasını təşviq etməkdir.

### "Zamanla elm və təhsil jurnalistikasının ayrıca peşəkar istiqamət kimi formalaşmasını arzulayırıq"

*— Yanlış interpretasiya və sensasiyalaşdırmanın qarşısını almaq üçün hansı alətlər təqdim olunacaq?*

— Layihə çərçivəsində iştirakçılara bu istiqamətdə həm nəzəri metodologiya, həm də praktik alətlər təqdim olunacaq. Bunlara fakt yoxlama və məlumat verifikasiyası üsulları, statistik göstəricilərin oxunması və təhlili metodikası, rəsmi hesabat və normativ sənədlərlə işləmə qaydaları və mənbələrin etibarlılığının qiymətləndirilməsi meyarları daxildir. Biz təlimçilərimizdən həm də xahiş edəcəyik ki, həssas başlıqlarda etik və balanslı təqdimat mexanizmləri və real hadisələr üzərindən səhv və doğru media nümunələrinin müqayisəli təhlilini iştirakçılara təqdim etsinlər. Bu alətlər iştirakçılarımıza xəbərin hazırlanması prosesində daha sistemli və məsuliyyətli yanaşma tətbiq etməyə kömək edəcək.

*— Sizcə, təlimlər nəticəsində nə kimi keyfiyyət dəyişikliklərinə nail oluna bilər və bunun uzunmüddətli təsiri necə olacaq?*

— Bu təşəbbüsün əsas gözləntilərindən biri ölkə mediamızda elm və təhsil mövzularının işıqlandırılmasında mümkün qədər keyfiyyət standartlarının yüksəlməsinə nail olmaqdır. Nəticə etibarilə bizim gözləntilərimiz çoxdur. İstərdik ki, təhsil və elm xəbərləri daha analitik və dərin məzmunlu olsun, yanlış interpretasiya və dezinformasiya halları azalsın və ictimaiyyət daha düzgün və dolğun məlumatlandırılsın. Düzdür, bunlara nail olmaq üçün jurnalist həmkarlarımız arasında bu istiqamətdə ixtisaslaşma meyli də güclənməlidir. Zamanla elm və təhsil jurnalistikasının ayrıca peşəkar istiqamət kimi formalaşmasını arzulayırıq. Uzunmüddətli perspektivdə isə sözsüz bu təşəbbüs ölkədə sahəvi jurnalistikanın inkişafına, media keyfiyyətinin yüksəlməsinə və ictimai maariflənmənin güclənməsinə töhfə verəcək.

**Samirə KƏRİMOVA**

# Gələcəyə sərmayənin ünvanı





# Qarabağ Universitetinin tələbələri seçimlərindən razıdırlar

**Xankəndidə Qarabağ Universitetinin fəaliyyətə başlaması Azərbaycanın təhsil tarixində yeni və strateji bir mərhələnin təməlini qoyub. Otuzillik işğaldan azad edilmiş ərazilərdə elmin və maarifçiliyin yenidən dirçəldilməsi məqsədilə yaradılan bu ali təhsil ocağı regionun intellektual potensialının bərpası üçün mühüm mərkəz rolunu oynayır. Bu addım təkcə Qarabağın yenidən qurulması deyil, həm də bölgədə dayanıqlı məskunlaşmanın təmin edilməsi və gənc nəslin doğma torpaqlarda müasir biliklərə yiyələnməsi baxımından tarixi əhəmiyyət kəsb edir.**

Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə müasir infrastruktur və innovativ təhsil modeli üzərində qurulan universitet yüksəkixtisaslı kadr hazırlığını həyata keçirərək işğaldan azad olunmuş ərazilərin iqtisadi və sosial inkişafına birbaşa töhfə verməyi hədəfləyir. Xankəndi şəhərinin mərkəzində ucalan bu elm məbədi “Böyük Qayıdış” Proqramının ruhuna uyğun olaraq, bölgəyə yeni nəfəs gətirir və Azərbaycanın parlaq gələcəyini simvolizə edən bir strateji layihə kimi diqqət mərkəzindədir.

AZƏRTAC-ın bölgə müxbiri Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsində təhsil alan tələbələrlə həmsöhbət olaraq onların tədris prosesi, yaradılan müasir şərait və universitet mühitinə dair təəssüratlarını öyrənib. Tələbələr ali təhsil ocağında tətbiq olunan yeniliklərdən, praktikyönümlü dərslərdən və yeni infrastrukturun təqdim etdiyi imkanlardan razılıqlarını bildiriblər.

### Gələcəyə böyük sərmayə — “Bu ali təhsil ocağını seçməkdə yanılmamışıq”

“Dövlət və bələdiyyə idarəetməsi” ixtisası üzrə təhsil alan Xəyal Səmədzadə qeyd edib ki, 2024-cü ildə ali məktəbə qəbul imtahanı zamanı Qarabağ Universitetini ilk sırada seçib: “Universitetdə təhsilin keyfiyyəti məni tam qane edir. Bu semestr yeni binaya keçdik. Tədrisin keyfiyyətində də dəyişikliklər oldu. Təhsil sistemində tətbiq edilən yeniliklər, xüsusən də biliklərin mənimsənilməsini yoxlayan müntəzəm kuizlər olduqca uğurlu nəticə verir. Dərslərimiz təcrübəyönümlü keçirilir, müxtəlif dövlət qurumlarında və təşkilatlarında praktiki vərdişlərə yiyələnirik”.

Xəyal universitetdəki tədris mühitindən danışarkən müəllim heyətinin peşəkarlığını xüsusi qeyd edib. O bildirib ki, pedaqoji heyət yeni qurulmuş sistem vasitəsilə dərslərin daha keyfiyyətli mənimsənilməsi üçün hər bir tələbəyə fərdi yanaşır, müntəzəm olaraq əlavə məsləhət saatları təşkil edir. Onun sözlərinə görə, universitetin mərkəzi kitabxanası ilə yanaşı, fakültə daxilindəki zəngin kitab fondu və tələbələrin sərbəst istifadəsinə verilmiş müasir kompüter avadanlıqları təhsil prosesini daha səmərəli edir. Gənc tələbə doğma Qarabağ torpağında təhsil almağın onda böyük mənəvi qürur hissi yaratdığını da vurğulayıb.

“Menecment” ixtisası üzrə təhsil alan Fərid Allahverdiyev isə universitetin yeni korpusundakı geniş imkanlardan söz açıb: “Universitetimizin yeni binasında tələbələr üçün geniş imkanlar yaradılıb. İmtahanlara daha yaxşı hazırlaşmaq üçün kitabxanadan istifadə edirik. Burada ümumi zalla yanaşı, qrup otaqları da var və orada dərslərimizə rahat şəkildə hazırlaşırıq. Biz gələcəyə böyük yatırım edən bu ali təhsil ocağını seçməkdə yanılmamışıq. Burada xarici təcrübəyə və fərqli metodlara əsaslanan dərslər vasitəsilə gələcəyin rəqabətqabiliyyətli mütəxəssisləri kimi yetişirik”.



**Xəyal Səmədzadə**

### “Dərslərimiz təcrübəyönümlü keçirilir, müxtəlif dövlət qurumlarında və təşkilatlarında praktiki vərdişlərə yiyələnirik”

“Universitetdə təhsilin keyfiyyəti məni tam qane edir. Bu semestr yeni binaya keçdik. Tədrisin keyfiyyətində də dəyişikliklər oldu. Təhsil sistemində tətbiq edilən yeniliklər, xüsusən də biliklərin mənimsənilməsini yoxlayan müntəzəm kuizlər olduqca uğurlu nəticə verir. Dərslərimiz təcrübəyönümlü keçirilir, müxtəlif dövlət qurumlarında və təşkilatlarında praktiki vərdişlərə yiyələnirik”.

**Fərid Allahverdiyev**

### “Burada xarici təcrübəyə və fərqli metodlara əsaslanan dərslər vasitəsilə gələcəyin rəqabətqabiliyyətli mütəxəssisləri kimi yetişirik”

“Universitetimizin yeni binasında tələbələr üçün geniş imkanlar yaradılıb. İmtahanlara daha yaxşı hazırlaşmaq üçün kitabxanadan istifadə edirik. Burada ümumi zalla yanaşı, qrup otaqları da var və orada dərslərimizə rahat şəkildə hazırlaşırıq. Biz gələcəyə böyük yatırım edən bu ali təhsil ocağını seçməkdə yanılmamışıq. Burada xarici təcrübəyə və fərqli metodlara əsaslanan dərslər vasitəsilə gələcəyin rəqabətqabiliyyətli mütəxəssisləri kimi yetişirik”.

## Qarabağ Universitetində təhsil almağın üstünlükləri

Göründüyü kimi, Qarabağ Universiteti müasir təhsil standartlarını və innovativ yanaşmaları özündə birləşdirərək, tələbələr üçün geniş imkanlar təqdim edir. Universitetdə tədris həm Azərbaycan, həm də ingilis dillərində aparılmaqla yanaşı, akademik ingilis dili bacarıqlarının inkişafı və beynəlxalq elmi resurslara çıxış əsas prioritetlərdən biri kimi müəyyən edilib. Yeni məzmunlu təhsil proqramları rəqəmsal mühitlə inteqrasiya olunmuş şəkildə qurulub ki, bu da tələbələrin həm yerli, həm də əcnəbi peşəkar professor-müəllim heyətindən ən müasir bilikləri mənimsəməsinə şərait yaradır. Eyni zamanda, beynəlxalq ikili diplom və mübadilə proqramları tələbələrin qlobal əmək bazarında rəqabət qabiliyyətini artırır, elmi-tədqiqat və startap layihələrinə verilən dəstək isə onları gələcəyin innovatorları kimi yetişdirir.

Tələbələrə yaradılan imkanlar bununla bitmir. Belə ki, təhsil müəssisəsi yalnız akademik mükəmməlliklə kifayətlənməyərək, həm də tələbələrin sosial rifahı üçün böyük imtiyazlar təklif edir. Universitetdə təhsilin dövlət hesabına olması ilə yanaşı, hər bir tələbəyə təqaüd verilir, yüksək bal toplayanlar üçün isə xüsusi əlavə təqaüd imkanları nəzərdə tutulur. Tələbələrin yaşayış şəraiti də diqqət mərkəzindədir - dövlət hesabına təmin edilən müasir yataqxanalar, yaşıl və ekoloji təmiz kampus mühiti təhlükəsiz şəhər konsepsiyası ilə tamamlanır. Müasir maddi-texniki baza ilə təchiz olunmuş bu innovativ universitet modeli tələbəyönümlü yanaşması ilə gənclərə həm elmi, həm də praktiki baxımdan ideal inkişaf platforması vəd edir.

Beləliklə, Qarabağ Universitetində yaradılan müasir təhsil mühiti, tətbiq olunan innovativ yanaşmalar və tələbəyönümlü şərait gənclərin hərtərəfli inkişafına geniş imkanlar açır. Tələbələrin də razılıqla bəhs etdiyi bu ali təhsil ocağı yalnız biliklərin mənimsənildiyi məkan deyil, həm də gələcəyin peşəkar və rəqabətqabiliyyətli mütəxəssislərinin formalaşdığı mühüm bir mərkəzdir. Qarabağda təhsil almaq gənclər üçün həm böyük məsuliyyət, həm də qürur mənbəyidir.

# QƏRBİ AZƏRBAYCAN
## BİZ QAYIDACAĞIQ!

# Xalqının qəlbindəki Aşıq Ələsgər



**Bədii ədəbiyyat artıq, çoxdandır ki, ayrı-ayrı millətlərin deyil, bütövlükdə bəşər mədəniyyətinin əhəmiyyətli bir hissəsi, onun mənəvi parçası olaraq insanları dünən və gələcək kontekstində birləşdirən körpüdür. O, insan ruhunun ən yaxşı cəhətlərini oyadır və varoluş məqsədləri uğrunda mübarizədə ona kömək edir. Bu baxımdan onun şifahi forması olan folklor ədəbiyyatı xüsusi əhəmiyyət daşıyır. Folklor xalqın əsrlər boyu formalaşan yaddaşı, dünyagörüşü və həyat fəlsəfəsinin ifadəsi, onun adət-ənənələrini, əxlaqi dəyərlərini, sevinc və kədərini, tarixi taleyini əks etdirən ən mükəmməl şifahi yaradıcılıqdır. Bu yaradıcılıqda xalqın ancaq təfəkkür səviyyəsi deyil, təbii sərhədləri daxilində coğrafiyası əks olunur, keçib gəldiyi yolları görünür, Abbas Tufarqanlının bu şeirindəki kimi:**

*Ay ağalar, gəlin tərif eləyim,*
*Nə əcəb düşübdü yeri Dərbəndin.*
*İsgəndər əlilə olub bərqərar,*
*Çəkilibdi bürcü-barı Dərbəndin.*

*Döşündə çeşmələr, zirvəsində qar,*
*Gözəlində həya, iyidində ar.*
*Elə ki, qış keçdi, açıldı bahar,*
*Laləzardı sağı, solu Dərbəndin.*

*Dərbənd dedikləri bağçadı, bağdı,*
*Alt yanı dəryadı, üst yanı dağdı,*
*Çox əcəb gəzməli, səfalı çağdı,*
*Xəstəyə şəfadı narı Dərbəndin.*

Bu,Təbrizin 60 kilometrliyindəki Urmu gölünün şərqində, Səhənd dağına "əl uzatsan çatar" məsafədə yerləşən Tufarqanda Vətəni vəsf edən Qul Abbasın (O, özünü həmin vətənin qulu saydığından qoşmalarında bu təxəllüslə də təqdim edilirdi) hüdudsuz kimi görünən doğma torpaqlara sevginin ifadə forması idisə, ondan 200 il sonra aşıq sənətinin nəinki ən gözəl ənənələrini yaşadan, üstəlik, o ənənələri yeni nümunələrlə zənginləşdirən, Göyçə gölünün yaxınlığında yaşasa da, ömrünün son günlərinədək Azərbaycan aşıq sənətinin ədəb-ərkanını yaşadan və müasirləri ilə bərabər gələcək aşıq nəslinə də örnək olası irs qoyan Aşıq Ələsgər "Gərəkdi"si ilə "açıq dərs" keçirdi:

*Aşıq olub, tərki-vətən olanın,*
*Əvvəl, başda pür kamalı gərəkdi.*
*Oturub-durmaqda ədəbin bilə,*
*Mə'rifət elmində dolu gərəkdi.*

*Xalqa həqiqətdən mətləb qandıra,*
*Şeytanı öldürə, nəfsi yandıra,*
*El içində pak otura, pak dura,*
*Dalısınca xoş sədalı gərəkdi.*

*Danışdığı sözün qiymətin bilə,*
*Kəlməsindən ləlü gövhər süzülə,*
*Məcazi danışa, məcazi gülə,*
*Tamam sözü müəmmalı gərəkdi.*

Bu, sonralar ancaq Göyçədə deyil, bütün Azərbaycan məkanında Dədə Ələsgər - deyilərək çağrılan ustadın aşıqlıq sənətinə gələnlərin hansı meyarlara sahib olmaları ilə bağlı xatırlatmalardır. İstər aşıq sənətində, istərsə də o sənətin ən mühüm göstəricilərindən olan aşıq ədəbiyyatında Aşıq Ələsgər öz irsi ilə bir məktəbdir. Bu məktəbdə aşıq poeziyasına aid janrlara müraciət, həmin janrların yaratdığı imkanlardan yerli-yerində, məharətlə istifadə, bu və ya digər həyati mövzulara müraciəti zamanı onların hansının daha münasib olmasını duyabilmə qabiliyyəti özünü göstərir:

*Arif ola, eyham ilə söz qana,*
*Naməhrəmdən şərm eyləyə, utana,*
*Saat kimi meyli haqqa dolana,*
*Doğru qəlbi, doğru yolu gərəkdi.*

*Ələsgər haqq sözün isbatın verə,*
*Əməlin mələklər yaza dəftərə.*
*Hər yanı istəsə, baxanda görə,*
*Təriqətdə bu sevdalı gərəkdi.*

Dədə Ələsgər "Gərəkdi"sində aşıq sənətinin kodeksini yaradırdı. Bu, həmin kodekslər sisteminə aid o anlayışdır ki, qərinələr sonra dəyərlər kateqoriyasını yaratmaq zərurəti yaşayan cəmiyyətlər o çərçivədə sənət etikasını - yaradıcılıq prosesində, əsərlərin hazırlanması və təqdimatında sənətkar davranışlarını, onun mənəvi dəyərlərini və ictimai məsuliyyətini tənzimləyən qaydalar məcmuəsini qanunlaşdıracaqlar. Göyçəli aşıq isə XIX əsrin 60-70-ci illərində aşıqlıq sənəti etikasını yazırdı: yalnız nəyin yaradıldığı ilə deyil, həm də necə yaradıldığı və təqdim edildiyi ilə bağlı mənəvi sərhədləri müəyyən edir. Bu sənətin ən başlıca cəhətini isə "Saat kimi meyli haqqa dolana, Doğru qəlbi, doğru yolu gərəkdi" - deyə, vurğulamaqla, istənilən sənətdə səmimiliyi başlıca amil kimi görür.

Bütün bunlarla bərabər, Aşıq Ələsgərin əksər şeirləri təbiətin - onun tərkib hissəsi olan dəyərlərin poetikasını yaradır. Bu poetikanın işığında təbiət və onun tərkib hissəsi olan zərrəcikləri necə də aydın görünür və bəlkə buna görədir ki, onunlirik "Mən"i öz sevgisinin etirafında olduğu kimi, duyğularının izharında da səmimidir. Buna görədir ki, onun şeirlərinin dili, məntiqi, ideya-məzmunu, əslində xalqımızın bədii-təfəkkür tərzinin ifadəsi kimi qəbul edilir və qavranılır. Nəticədə xalqın mahiyyətindən yarandığı şübhə doğurmayan qaynaqlardan qidalanan bu şeirlər hansı janrda olmasından asılı olmayaraq oxunaqlı, yaddaqalan və təsirli olur. Onun lirik "Mən"inin verdiyi suallar da sevgisi qədər təsirlidir. Bu sevgidə dərin emosional-psixoloji bağlılıq, fədakarlıq, qayğı və hörmətə əsaslanan qeyri-maddi hissi nəinki duyur, onu yaşayırsan. Bu hisslərdə insanın özünü dərk etdiyi andan yaşadığı duyğular o qədər qabarıqdır ki, lirik "Mən"lə bərabər olduğunu zənn edirsən:

*Ayrılıqdan ölüm yeydi,*
*Həsrətin qəddimi əydi.*
*Nə dedim, xətrinə dəydi,*
*Üzün məndən niyə döndü?*

*Aşığa yoxdu qadağa,*
*Müştaqdı dilə, dodağa.*
*Ələsgər sana sadağa,*
*Üzün məndən niyə döndü?*

Aşıq Ələsgərin hansı janrda olursa-olsun, yaradıcılığının qayəsində sevgi dayanır və bunu onunla izah etmək mümkündür ki, bu şeirlərin ömrünün az qala əbədi kimi görünən taleyini həmin sevgidən uzaqda təsəvvür etmək mümkün deyil. Bu sevginin ünvanları müxtəlif olsa da, müəllif o müxtəliflikləri ümumi müstəviyə gətirir və ona görədir ki, doğulan gündən formaca rəngarəng olan həmin mənəvi varlıqların mahiyyətini asanlıqla dərk edir, onu təhtəlşüurunda saxlaya bilirsən.

Buna, dəyərlər kompleksi demək olar, insanlar məhz həmin dəyərlər daşıyıcısı olaraq millətə çevrilir. Birmənalı olaraq o məsələnin üzərində israrla dayananları inkar etmək çətindir ki, "millət"i şərtləndirən başlıca keyfiyyət ortaq dil deyil, ortaq dini də ağla gətirmək real görünmür. Millət- tarix, mədəniyyət, psixologiya birliyinə malik, özünü vahid cəmiyyət kimi identikləşdirən insanların ümumi daşıyıcısı olduğu dəyərlərlə şərtlənən sabit ictimai-siyasi və etnomədəni birliyidir.

Məhz bu nöqteyi-nəzərdən yazılı ədəbiyyat və folklor nümunələri yaradan böyük şəxsiyyətlər ilk



növbədə insanlarımızı daha çox dəyərlər ətrafında yığılmağa çağırmışlar. Həmin çağırışların sonu isə hansısa məqamda bəşəri xarakter alır və dünyanın məhək daşının həqiqətdən keçdiyi inamı vurğulanır, insanların hansı keyfiyyətdə olduğu vaxtlarda Şərin yeriməyəcəyi, Xeyirin addımlar atacağı qənaət möhkəmlənir. Bu qənaət Aşıq Ələsgərin "Dünyada" şeirində bu cür səslənir:

*Qafil dilim, bu nə yoldu tutubsan,*
*Sərf edirsən nə kamaldı dünyada.*
*Dövlətə güvənib, gül tək açılma,*
*Çox sənin tək güllər soldu dünyada.*

*Kibridən qəlbində bərkitmə barı,*
*Top dəyər, dağılar bürcü, hasarı,*
*Yüz sənin tək ahu gəzən şahmarı,*
*Fələk kəməndinə saldı dünyada.*

*Guşumda sırğadı, sinəmdə dağdı,*
*Ağıllı unutmaz, necə ki sağdı:*
*Dövlətdən qismətin beş arşın ağdı,*
*Çəkdiyin qovğadı, qaldı dünyada.*

Bu məqamlarda Aşıq Ələsgər mənəviyyat yolunun yolçusu olduğunu, daxilən yaşadığı dərin mənəvi, daxili və mistik həyat tərzi ilə qəlbini dünyəvi bağlılıqlardan təmizləyən sufi olaraq, ilahi sevgiyə qovuşmağa can atmağa, özünütərbiyə yolu ilə "kamil insanlığa" nail olmağa və Allaha yaxınlaşmağa çağırış edən Yunis Əmrəyə bənzəyir. Söhbət o Yunis Əmrədən gedir ki, Anadolu təsəvvüf şeirinin banisi, ilahi eşqi, insan sevgisini və vəhdəti-vücud fəlsəfəsini xalq dilində çatdıran, ömrünü dünyanı dərk etməyə çağırışları ilə Allaha eşqi, insan qəlbinin ucalığını bir vəhdətdə görməyə dəvət edirdi. Aşıq Ələsgər "Dünyada" qoşmasında təkcə Azərbaycanın deyil, ümumilikdə Yaxın Şərqin ən böyük mütəffəkirlərindən biri kimi qəbul olunan Mirzə Fətəli Axundovun aforizmini - "Kamal ata kürkü deyil ki, irsən övlada keçə" fikrinə söykənir, insanın ən böyük sərvəti kimi "kamalı" göstərir:

*Fələk bərhəm edib çox nizamları:*
*Söndürüb zülm ilə yanan şamları.*
*Hayıf cavanların gül əndamları,*
*Mara-mura qismət oldu dünyada.*

*Yığılar məxluqat, qurular məhşər,*
*Boyunlarda kəfən, əllərdə dəftər,*
*Onda vay halına, yazıq Ələsgər,*
*Özün getdin, sözün qaldı dünyada.*

Əlbəttə, bu dəyərlərin ən istedadlı insanlarda formalaşması üçün mühitin olması şəksiz zəruri əsaslardandır və Aşıq Ələsgərə qədər o mühit formalaşmışdı. Yarandığı zamandan üzü bu tərəfə inkişaf edən aşıq şeirinin müxtəlif janrları - qoşma, gəraylı, müxəmməs, ustadnamə, qıfılbəndlə yanaşı, qoşmanın təcnis, cığalı təcnis və digər növlərindən ibarət olan aşıq sənəti özündə topladığı misilsiz sərvəti yaradan insanların xidmətləri idi ki, onlar Azərbaycan şifahi xalq ədəbiyyatını türkdilli xalqların folklorunda möhtəşəm mədəniyyət xəzinəsinə çevirmişdilər. Orta əsrlər Yaxın Şərqində öz inkişaf yolunun pik mərhələsinə keçən Azərbaycan aşıq sənətinin populyarlığı, demək olar ki, həmin region üçün xarakterik olmaqdan əlavə, həmin ərazilərdə, xüsusilə Güney Qafqazda yaşayan xalqların folklor nümunələrində yer alırdı. Nəticə olaraq Azərbaycan aşıq sənəti XV əsrin sonları və XVI əsrin əvvəllərində yaşamış Şah İsmayıl Xətainin müasiri, fəaliyyətini Səfəvilər sarayında davam edirən Aşıq Qurbani (Dirili Qurbani), XVI əsrdə Güney Azərbaycanda yaşamış Tufarqanlı Abbas, həmin əsrdə Quzey Azərbaycan aşıq sənətinin nümayəndəsi Sarı Aşıq, XIX əsr Göyçə aşıq məktəbindən Aşıq Alı (Qızılvəngli Alı) və digərlərinin unikal yaradıcılığı sayəsində ən yüksək məqamlara qalxa bilmişdi. Aşıq Ələsgər və onlardan sonra gələn yüzlərlə ustad sənənətkar öz yaradıcılıqları ilə nəinki o səviyyəni qoruya bilmiş, hətta onu inkişaf etdirərək adlarını ustad sənətkarlar sırasına yaza bilmişlər. Bunların arasında xüsusilə fərqlənən Qızılvəngli Aşıq Alının İrəvan xanlığının Ağkilsə kəndində anadan olmuş şəyirdi Aşıq Ələsgərin məxsusi yeri var. Onun ustad sənətkar kimi yetişməsində, əlbəttə, Aşıq Alının rolu inkar oluna bilməz, lakin o da var ki, əsas sözü fitri istedadı və zəhməti deyib. Məhz bu keyfiyyətləri sayəsində o, aşıq yaradıcılığının bütün sahələrinə müraciət etmiş və aşıq sənətində böyük iz buraxmaqla məktəb yaradan azsaylı sənətkarlar sırasında dayanıb. Ustadın yaradıcılığında xüsusi seçilən dodaqdəyməz, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı, divani və digər şeir növləri onun yaradıcılığında ən gözəl şəkildə yaranmaqla 170 ilə yaxındır ki, xalqımızın yaddaşındadır. Həmin şeirlər hansı janrda olmasından asılı olmayaraq öz mövzusu, yaradıcılıq üslubu, sadə olduğu qədər mənası ilə fərqlənir. Azərbaycan xalqının böyük əksəriyyətində "yaylaq" kültürünün özünəməxsus izləri var və bu izlər istər yazılı, istərsə də şifahi ədəbiyyatımızda kifayət qədər canlı tablolarda öz oxucu və yaxud dinləyicisində təəssürat yaradıb və tərəddüdsüz olaraq qeyd edə bilərik ki, o sənət əsərlərinin siyahısında Aşıq Ələsgərə məxsus "Yaylaq" qoşmasının xüsusi yeri var:

*Könlüm qaranquştək uçub qoynuna,*
*Gəzir hər yamacı, hər yalı, yaylaq!*
*Ruhum təzələnir, məst olur ürək,*
*Görəndə bu çağı, bu halı, yaylaq!*

*Kəkotu, qırxbuğum, qaymaqçiçəyi,*
*Bənövşə, qantəpər, qızlar örpəyi,*
*Qoyun mələşməsi, çoban tütəyi,*
*Çəkir uzaqlara xəyalı, yaylaq!*

Bu, ustad aşığın istedadı sayəsində yaranan sənət əsərinin kaloriti ilə fərqlənən şeirlərindən biridir. Yaylaq sözünün leksik mənasını bu qədər parlaq ifadə etməklə sözün mənzərəsini çəkməyin az sayda yaradıcı insanların nail olduğunu vurğulamaqla, deməyi lazım bilirik ki, Dədə Ələsgər gedib də gördüyü yaylaqların coğrafiyasını cızmaqla bərabər, həmin yerlərin toponimlərini qabardır, onların əzəli sakinlərinin kim olduğunu xatırladır:

*Qırxqız, Alaqaya, Çilgöz, Narışlar,*
*Murov, Uzunyoxuş, Dəlidağ, Qoşqar!*
*Hansı oğul, deyin, sizi unudar?!*
*Düşərmi el sizdən aralı, yaylaq?!*

*Ələsgər köynəkdən çıxartsın sazı,*
*Yenə cuşa gəlsin, eşqi, avazı,*
*Tərifləsin allı, yaşıllı yazı,*
*Unutma bu böyük kamalı, yaylaq!*

Aşıq Ələsgər onaqədərki ustad aşıqların yaratdığı mühitdən qidalanan, fitri istedadı ilə aşıq sənətini yüksəkliklərə qaldıran, sələfləri olan klassik aşıqlarımızın, həmçinin özündən sonra gələn, aşıqlıq sənətinə yiyələnmək istəyən gənclərə müqayisəolunmaz stimul verən ustad sənətkarlarımızdan biridir. Aşıq Ələsgər, yaradıcılığı dövründə sinkretik sənətin sirlərinə sahib olmağı bacaran, gözəl saz çalan, dastan söyləyən, zəngin aşıq poeziyasına aid janrların - qoşma, gəraylı, divani, təcnis, müxəmməs və digər janrların estetik təbiətinə, bədii-ifadə imkanlarına dərindən yiyələnən ustad kimi nəinki Göyçə və yaxud Azərbaycan aşıq sənətində, həmçinin Quzey, yaxud Güney Azərbaycanla bərabər, Dağıstan, Qərbi Azərbaycan və Türkiyənin şərq vilayətlərində kifayət qədər tanınan sənətkarlardan biri olub. Ustad bu gün də ancaq Azərbaycan Respublikasının sərhədləri daxilində deyil, 50 milyona yaxın soydaşımızın yaşadığı coğrafiyada anılır, onun müxəmməs və təcnisləri, qoşma və gəraylıları dünyanın hikmətini bir daha hər kəsə xatırladır. O hikmətin mayası nədən yorulub, bunu isə "Dağlar" qoşmasında Dədə Ələsgər yada salır:

*Bahar fəsli, yaz ayları gələndə,*
*Süsənli, sünbüllü, lalalı dağlar,*
*Yoxsulu, ərbabı, şahı, gədanı,*
*Tutmaz bir-birindən aralı dağlar.*

*Gahdan çiskin tökər, gah duman eylər,*
*Gah gəlib-gedəni peşiman eylər,*
*Gahdan qeyzə gələr, nahaq qan eylər,*
*Dinşəməz haramı, halalı dağlar.*

O, bu gün də xalqımızın gələcək tarixi boyu yaşayaraq seviləcək şeirləri ilə çağırışlar etməkdədir. İnsanlarımızı Vətəni sevməyə, ali bəşəri duyğularla yaşamağa və ədalətli olmağa səsləyən bu çağırışlar günümüzdə nə qədər aktualdır!

**30 sentyabr 2024-cü ildə Bakı şəhərində Prezident İlham Əliyevin Sərəncamı ilə Aşıq Ələsgərin ucalan abidəsinin açılışı mərasimində uca dəyərlərlə yaşayan xalq ozanı belə təqdim edilirdi: "Aşıq Ələsgərin yaradıcılığı Azərbaycan xalqının ürəyində böyük bir iz buraxmışdır ki, 200 il keçəndən sonra yenə də o, görkəmli şəxsiyyət, vətənpərvər insan, öz xalqını, Vətənini sevən insan kimi xalqımızın yaddaşında yer tutub. Əlbəttə ki, biz onun timsalında xalqımızın yüksək ruhunu görürük". Xatırlatma üçün qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli 211 nömrəli Qərarı ilə Aşıq Ələsgər Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.**

**Mahirə HÜSEYNOVA,**
**ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru,**
**Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü,**
**filologiya elmləri doktoru, professor.**

# "İrəvanda Azərbaycan təhsil tarixi"




**Aprelin 16-da Qərbi Azərbaycan İcmasında xalqımızın çoxəsrlik mədəni və intellektual irsinin ən mühüm qatlarından biri olan təhsil tariximizə işıq salan fundamental tədqiqat əsərinin — filologiya üzrə fəlsəfə doktoru, dosent Cəlal Allahverdiyevin "İrəvanda Azərbaycan təhsil tarixi" adlı monoqrafiyasının təqdimat mərasimi keçirilib.**

Təqdimat mərasimində Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvləri, icma və şura sədrləri, millət vəkilləri, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərli qeyd edib ki, bu nəşr təhsil tarixinin sistemli şəkildə araşdırılması baxımından mühüm elmi mənbədir. Monoqrafiya İrəvanda Azərbaycan maarifçiliyinin zəngin ənənələrini üzə çıxararaq tarixi həqiqətlərin bərpasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Ə.Ələkbərli çıxışında vurğulayıb ki, XIX əsrin əvvəllərində, xüsusən 1832-ci ildə İrəvanda qəza məktəbinin açılması ilə burada fəaliyyət göstərən dünyəvi məktəblər bu torpaqların azərbaycanlıların qədim ana vətəni və mədəniyyət beşiyi olduğunun ən bariz göstəricisidir: "Ötən əsrin 80-ci illərinə qədər Qərbi Azərbaycanın 289 kəndində məktəblər fəaliyyət göstərib. Bu təhsil ocaqları Azərbaycan elminə və mədəniyyətinə misilsiz töhfələr verən görkəmli şəxsiyyətlər yetişdirib".

Monoqrafiyanın elmi redaktoru, Qərbi Azərbaycan İcmasının sədr müavini, professor Hikmət Babaoğlu əsəri "Azərbaycan xalqının ensiklopedik yaddaşı" kimi xarakterizə edib. Onun sözlərinə görə, İrəvandakı təhsil mühiti Azərbaycanın ümumi təhsil xətti ilə paralel inkişaf yolu keçib: "Cəlal Allahverdiyevin bu əsəri elmi dəyəri ilə yanaşı, həm də böyük ictimai-siyasi çəkiyə malikdir. İndiyədək heç bir mənbədə adı keçməyən ədiblərin üzə çıxarılması və Azərbaycan mətbəəsinin İrəvandakı izlərinə dair ilk dəfə təqdim olunan məlumatlar əsərin elmi dəyərini artırır".

H.Babaoğlu bildirib ki, 536 səhifəlik fundamental monoqrafiyada müəllif ilk dəfə olaraq İrəvan mahalında təhsil sisteminin formalaşma mərhələlərini arxiv sənədləri əsasında sistemli şəkildə araşdırıb. Kitabda xüsusilə diqqət çəkən məqamlardan biri də İrəvanda qadınların təhsilə cəlb olunması, onların ictimai fəallığı və təhsil sistemindəki rolu ilə bağlı indiyədək heç bir yerdə rast gəlinməyən nadir məlumatların yer almasıdır.

Müzakirələrdə iştirak edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru, Dövlət Mükafatı laureatı Nazim Mustafa, Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, millət vəkili Məlahət İbrahimqızı, Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının üzvü, Milli Məclisin komitə sədri Musa Urud, Qərbi Azərbaycan İcmasının Amasiya rayonu üzrə sədri, akademik Abel Məhərrəmov, millət vəkili Rizvan Nəbiyev, AMEA-nın müxbir üzvü Könül Bünyadzadə, Təhsil İnstitutunun şöbə müdiri, professor Akif Abbasov, Qərbi Azərbaycan İcmasının hüquq komissiyasının sədri, Böyük Qarakilsə icmasının sədri, professor Zahid Cəfərov, Təhsil İnstitutunun şöbə müdiri, professor İntiqam Cəbrayılov və digər qonaqlar vurğulayıblar ki, əsər İrəvanda Azərbaycan maarifçilik ənənələrinin nə dərəcədə köklü olduğunu ortaya qoyur.

Bildirilib ki, əsərdə Qərbi Azərbaycanda təhsilin xalq pedaqogikası və islam mənəviyyatına söykənərək milli varlığın qorunmasında oynadığı rol elmi əsaslarla təqdim edilib.

Tədbirin sonunda müəllif Cəlal Allahverdiyev kitabın ərsəyə gəlməsində əsas məqsədinin tarixi həqiqətləri gələcək nəsillərə ötürmək və milli varlığımızı qoruyan maarifçilik irsimizi sistemləşdirmək olduğunu qeyd edib.

Qeyd edək ki, "İrəvanda Azərbaycan təhsil tarixi" adlı monoqrafiyanın elmi redaktorları sırasında filologiya elmləri doktoru, professor Mahirə Nağıqızı və siyasi elmlər doktoru, professor Hikmət Babaoğlu yer alır. Kitab tarix üzrə fəlsəfə doktoru Nazim Mustafanın məsləhətçiliyi ilə hazırlanıb.

**Mərziyyə KAZIMZADƏ**

# Azərbaycan Tələbə Liqasının 2025/2026 mövsümündə II dövrəyə start verilib



**Ali təhsil müəssisələrinin tələbələri arasında futzal üzrə Azərbaycan Tələbə Liqasının 2025/2026 mövsümü üzrə II dövrəyə start verilib.**

Liqanın A qrupunda mübarizə aparan Bakı Dövlət Universiteti ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin komandalarının qarşılaşması olub, oyun 2:1 hesabı ilə başa çatıb.

Daha sonra Azərbaycan İdman Akademiyasının komandası Azərbaycan Texniki Universitetinin komandasına 3:0 hesabla qalib gəlib. Azərbaycan Dövlət İqtisad Universiteti ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin komandalarının oyununda 4:4 hesabı qeydə alınıb.

Azərbaycan Texniki Universitetinin idman kompleksində 14 ali təhsil müəssisəsinin komandalarının mübarizə apardığı yarışa may ayında yekun vurulacaq.

Qeyd edək ki, Azərbaycan Tələbə Liqası Elm və Təhsil Nazirliyi ilə Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi ilə keçirilir.

Liqanın keçirilməsində məqsəd ali təhsil müəssisələrinin tələbələri arasında futzal idman növünün təbliği, perspektivli idmançıların aşkar edilməsi, bu idman növünə marağın artırılması, həmçinin tələbələrdən ibarət futzal üzrə yığma komandanın formalaşdırılmasıdır.

# Naxçıvan məktəblisi beynəlxalq turnirin qalibi olub



**Azərbaycan Karate Federasiyasının təşkilatçılığı ilə 10-12 aprel tarixlərində Sərhədçi İdman Mərkəzində “Grand Prix” beynəlxalq karate turniri keçirilib.**

Turnirdə 6 ölkədən ümumilikdə 700-ə yaxın idmançı mübarizə aparıb. Naxçıvan Muxtar Respublikasından yarışda “Naxçıvan” karate klubunun idmançıları təmsil olunublar. Klubun üzvlərindən Fatimə Bağırzadə 10-11 yaş kateqoriyasında 44 kq çəki dərəcəsində birinci yerin sahibi kimi turnirin qızıl medalına layiq görülüb. Digər idmançı Sona Nəcəfbəyli (8-9 yaş, -32 kq) isə turniri üçüncü yerdə başa vurub.

Əlavə edək ki, beynəlxalq yarışın ardınca 2-ci liqa (həvəskarlar) üzrə turnir təşkil olunub. Həmin turnirdə Hüseyn Qafarlı (10-11 yaş, +50 kq) birinci, Damla Tağızadə (10-11 yaş, -44 kq) ikinci, Fuad Sadiqov (10-11 yaş, -40 kq) və Yusif Tağıyev (10-11 yaş, -40 kq) isə üçüncü yerə sahib olublar.

**Aytən YUSİFOVA,**
**Naxçıvan Muxtar Respublikası üzrə təmsilçi**


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 25746 **Sifariş:** 506

**Məsul növbətçi:** S.Kərimova


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Sumqayıt Dövlət Universiteti

## ştatda vakant olan vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

*Dekan vəzifəsini tutmaq üçün:*
Təbiət elmləri fakültəsi - 1 yer

*Kafedralar üzrə dosent*
Mühasibat və iqtisadiyyat (İqtisadiyyat üzrə) - 1 yer
Biznesin idarə edilməsi - 2 yer
İnformasiya texnologiyaları - 1 yer
Energetika - 1 yer
Kimya - 1 yer
Fizika- 1 yer
Riyazi analiz və diferensial tənliklər - 1 yer
Dil və ədəbiyyat - 1 yer
Tarix, coğrafiya və metodika (Tarix-1, Coğrafiya-1) -2 yer

*Kafedralar üzrə baş müəllim*
Mühasibat və iqtisadiyyat (Mühasibat üzrə) - 1 yer
Biznesin idarə edilməsi - 1 yer
Azərbaycan və Şərqi Avropa xalqları tarixi - 1 yer
Tarix, coğrafiya və metodika (Tarix üzrə) - 1 yer
Dil və ədəbiyyat - 5 yer
Pedaqogika və psixologiya - 2 yer
Xarici dillər - 4 yer
Biologiya- 1 yer
İnformasiya texnologiyaları - 4 yer

*Kafedralar üzrə 0,5 ştat baş müəllim*
Mühasibat və iqtisadiyyat (Mühasibat üzrə) - 1 yer
Pedaqogika və psixologiya - 1 yer

*Kafedralar üzrə müəllim*
Avtomatika və mexanika - 1 yer
İnformasiya texnologiyaları - 1 yer
Fizika- 1 yer
Riyazi analiz və diferensial tənliklər - 1 yer
Pedaqogika və psixologiya - 2 yer

**Qeyd:** Sənədlər, elan dərc olunan gündən bir ay (30 gün) müddətində təqdim oluna bilər. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etməlidirlər.

**AZ 5008 Sumqayıt, 43-cü məhəllə,**
**SDU otaq 233, (018) 642-15-06 Əlavə: 1-16**
**www.sdu.edu.az, email: info@sdu.edu.az**

**Rektorluq**

# Etibarsız sayılır

**Bakı şəhər** “Uniser” MMC-nin nəzdində tam orta məktəbi 2023-cü ildə bitirmiş Babayeva Ədilə Kamran qızına verilmiş E-574633 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Çaxırlı kənd ümumi orta ümumtəhsil məktəbin VIII sinfini 1986-cı ildə bitirmiş Umudov Mədəd İslam oğluna verilmiş 019978 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**80 nömrəli Bakı orta texniki peşə məktəbi** tərəfindən 1993-cü ildə Zöhrabov Ceyhun Şirbala oğluna verilmiş 413740 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Qobu qəsəbə 2 nömrəli tam orta məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Əliyev Elşad Adil oğluna verilmiş 497990 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2014-cü ildə Kərimova Aygün Müstəcəb qızına verilmiş YB-019671 nömrəli Yenidənhazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli Tibb Məktəbi** tərəfindən 1984-cü ildə Əliyeva Cəmilə Tanrıverdi qızına verilmiş 3T-030991 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən Dünya Məktəbinin** IX sinfini 2023-cü ildə bitirmiş Süleymanova Nərgiz Ziya qızına verilmiş C-768750 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 244 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Əliyeva Xədicə Tofiq qızına verilmiş A-426360 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Şərq qəsəbə tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Azadova (Kərimova) Rəqsanə Arif qızına verilmiş B-565734 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Məmmədova Ayidə Əli qızına verilmiş B-028831 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Aşağı Qarxun kənd tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Mustafazadə Aytən İkram qızına verilmiş B-512740 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Balçılı kənd tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Yusifli Amil Həsrət oğluna verilmiş 742027 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul şəhər** 3 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Müslümzadə Rasim Müslüm oğluna verilmiş A-566602 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Sarıqaya kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Mustafayeva (Mehdiyeva) Ülviyyə Qurban qızına verilmiş A-841452 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Qoruqbağı kənd tam orta ümumtəhsil məktəbi 1998-ci ildə bitirmiş Qarayeva Əsli Fərman qızına verilmiş A-355523 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Kürkənd kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Dadaşova Ülkər Şərafət qızına verilmiş B-116627 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Qəribova (Bağırova) Minürə Tahir qızına verilmiş B-153666 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbi (keçmiş 45 nömrəli dəmiryolu stansiyası) 1992-ci ildə bitirmiş Arzumanov Zaur Sabir oğluna verilmiş 126314 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2003-cü ildə Kərimov Elşən Sahib oğluna verilmiş AB-I-081638 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlaser kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Ömərova Meyram Begencovnaya verilmiş A-514875 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2024-cü ildə Qurbanov Vüsal Cavid oğluna verilmiş C-215541 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Alıyev Nicat Elçin oğluna verilmiş A-205760 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Y.Məmmədov adına Ramal kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Məmmədov Heydər Qasım oğluna verilmiş C-506002 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Tikəband kənd tam orta məktəbi 1986-cı ildə bitirmiş Həmidov Vüqar Cəbrayıl oğluna verilmiş 196023 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci** tərəfindən 2018-ci ildə Əhmədova Ziyafət Şahmur qızına verilmiş AA-106272 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2023-cü ildə Paşayeva Aytən Nazim qızına verilmiş AA-192261 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2008-ci ildə Əlimirzəyev Elxan Səfimirzə oğluna verilmiş B-108224 nömrəli bakalavr doplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2005-ci ildə Əliyev Anar Ələskər oğluna verilmiş BC-001015 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şərur şəhər** 1 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Qənbərli Asim Elçin oğluna verilmiş A-318255 nömrəli tam orta təhsil haqqında attestat və 2020-ci ildə verilmiş E-261686 nömrəli tam orta təhsil haqqında dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2017-ci ildə Əliyeva Sevda İkmət qızına verilmiş A-127155 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş Yaraliyev Vüqar Feyzulla oğluna verilmiş A-264210 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Çalburun kənd tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Manaflı Muhəmmədbaqir Fuad oğluna verilmiş E-823752 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Məmmədli kənd tam orta məktəbi 2021-ci ildə bitirmiş Əliyev Rəsul Anaroviçə verilmiş E-430852 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 1997-ci ildə bitirmiş Məmmədov Namiq İsfəndiyar oğluna verilmiş 120639 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur şəhər** 1 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş İsmayılov Bilal Vüqar oğluna verilmiş A-393951 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 328 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Babayev Vaqif Babək oğluna verilmiş E-277117 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 1 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Rasulov Hacı Azər oğluna verilmiş A-373054 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Süleymanlı Fatimə Ramil qızına verilmiş E-449320 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 168 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş İsmailov Xəlil İbrahim oğluna verilmiş ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 64 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Məmmədrzayev Hüseyn Yusifoviçə verilmiş E-802473 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitunun Şəki filialı** tərəfindən 2013-cü ildə Rzazadə Məltəm Nadir qızına verilmiş A-001986 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 12 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Paşayev İlham Hidayət oğluna verilmiş AK-075782 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Plan-İqtisad Texnikumu** (indiki Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində Sosial-İqtisadi Kollec) tərəfindən 1997-ci ildə Aslanova Ruhiyyə Əvəz qızına verilmiş AB-II-023180 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 39 nömrəli Texniki Peşə Məktəbi (indiki Ə.Quliyev adına Mingəçevir Peşə Məktəbi) tərəfindən 1995-ci ildə Dadaşova Məhrubə İslam qızına verilmiş 0979998 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 264 nömrəli məktəb-liseyi 2022-ci ildə bitirmiş Nadirli Elmar Şahin oğluna verilmiş E-450985 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2020-ci ildə İsgəndərova Rəşidə Çinar qızına verilmiş C-062946 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.